# "Ana, ağlama, böyüyəndə ermənilərdən qisas alacağam"



**44 günlük Vətən müharibəsində düşmən üzərində qələbə qazanaraq, Azərbaycan xalqına sevinc yaşadan şəhidlərimizdən biri də Eyvazlı Məzdək Əli oğludur. 1996-cı ilin 26 fevralında Bakı şəhərində anadan olub. 2002-2013-cü illərdə Lökbatan qəsəbəsi 288 saylı məktəbdə təhsil alıb. Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi olan Məzdək 2017-ci ildə məzun olub və hərbi xidmətə yollanıb. Gədəbəydə N saylı hərbi hissədə qulluq edib.**

Hərbidən qayıtdıqdan sonra "Azərsu" Açıq Səhmdar Cəmiyyətində işləməyə başlayıb. 2020-ci il sentyabrın 21-də hərbi səfərbərlik çağırışı ilə təlimlərə qoşulub. 27 sentyabrda isə müharibəyə yollanıb. Oktyabrın 29-da Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Vətən uğrunda" , "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Onunla bağlı xatirələrindən danışarkən bacısı deyir: "Qardaşım uşaq vaxtı çox sakit, ağıllı olub. Uşaq ikən oyuncağı çox az idi. Bir tankı, balaca əsgərləri, bir də taxtadan avtomatı vardı. Bizim dayımız da 1992-ci ildə şəhid olub. Anam şəhid qardaşından ürək ağrısı ilə danışanda, qardaşım deyirdi, "Ana, ağlama, böyüyəndə gedib ermənilərdən qisasımı alacağam". Elə də oldu, verdiyi sözünün arxasında həmişəki kimi dayandı. Məktəb illərində bir dəfə də olsun ondan şikayət gəlmirdi. Müəllimələri Məzdəkdən qürurla danışanda deyirdilər ki, hər zaman başını aşağı salıb, dərsləri ilə məşğul olur. Bizi heç vaxt incitməyib. Universitet illərində də özünə hörmət qazanmışdı. Məzdəklə bir dəfə kəlimə kəsən onun necə gözəl insan olmağından danışırdı".

Məzdəkin bacısı əsgər yoldaşlarının onun haqqında dediklərindən də danışır: "Deyirlər ki, Məzdək bizdən böyük idi, bizi həmişə qoruyurdu. Komandirdən telefonu alıb bizə verirdi ki, ailənizlə danışın. Deyirdik, "Sən də danış", deyirdi, "siz danışın, mən sonra danışaram...". Şəhid bacısı deyir ki, qardaşı böyük-kiçik yeri bilən olub həmişə: "Evlə danışanda uşaqlar deyirdi ki, "Dayı, erməniləri öldür, gəl". Cavab verirdi ki, "Gələcəyəm, sizə də öz avtomatımdan alacağam"... Həmişə sözünü tutan qardaşım bu dəfə özü gələ bilməsə də, ailəsinə uca bir ad qoyub getdi: şəhid ailəsi. Varlığı ilə də, yoxluğu ilə də, qardaşım bizim qürur yerimizdir"... Şəhid Məzdək Eyvazlının dostları öz hesablarına onun əziz xatirəsinə ehtiram olaraq yaşadığı binanın yanında şəhidin adına bulaq tikdiriblər.

Xalqımız şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizi unutmur, daim yad edir. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, dövlətimizin suverenliyi və xoşbəxt gələcəyi uğrunda canlarını fəda etmiş Məzdək kimi qəhrəman oğullarımız müasir gənclik üçün ən gözəl vətənpərvərlik nümunəsidir.

**M.CƏFƏROV,**
**"Respublika".**